*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitinin ELMİ ƏSƏRLƏRİ № 30, 2021*
*УЧЁНЫЕ ЗАПИСКИ Азербайджанского Государственного Университета Культуры и Искусств № 30, 2021*
*SCIENTIFIC NEWS of Azerbaijan State University of Art and Culture № 30, 2021*

**UOT 746:75-051**

**Kəmalə Əliyeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**E-mail: kemaleelmir1995@gmail.com**

# MÜASIR DÖVR AZƏRBAYCAN XALÇAÇILIQ SƏNƏTİNİN İNKİŞAFI

**Xülasə**: Respublikamız müstəqillik əldə etdikdən sonra xalça sənətimizin tərəqqisi müxtəlif istiqamətlər almağa başladı. Azərbaycanda xalçaçılığın inkişafı üçün mühüm tədbirlər həyata keçirildi.

Məqalədə müasir dövrdə xalçaçılıq sənəti də daxil olmaqla dövlət tərəfindən mədəniyyət və incəsənətin inkişafına xüsusi diqqət yetirildiyi və dövlət başçısının verdiyi fərmanların da bu işdə rolunun olduqca böyük olduğu diqqətə çəkilir. Azərbaycan xalça sənətinin inkişafı istiqamətində atılan mühüm addımların xalça sənətimizi bir daha dünyaya tanıtmış olduğu göstərilir.

**Açar sözlər**: xalça sənəti, xalçaçılıq, xalq-tətbiqi sənəti, xalçatoxuma, Xalça muzeyi

Azərbaycan xalqının milli mədəniyyəti tarixində xalq-tətbiqi sənəti və onun bir qolu olan xalçaçılıq xüsusi əhəmiyyət kəsb edir.

Xalça sənəti – xalq sənətlərinin ən geniş yayılmış növü Azərbaycan xalqının məişətində özünəməxsus yerə malikdir və az qala xalqın milli simvoluna çevrilib. Fərqli-fərqli naxış elementləri və təsvirlərlə cilalanan xovlu və xovsuz xalçalar çadırların, alaçıqların, həmçinin yaşayış evlərinin və digər binaların divar bəzəklərində və döşənməsində istifadə edilir, eyni zamanda yüksək estetik əhəmiyyətə malikdir.

Azərbaycan xalça sənətinin XX əsrin ortalarına təsadüf edən sonrakı inkişaf dövründə xalça sənətinin inkişafı bir neçə istiqamətdə davam edərək çoxcəhətli səciyyə daşımışdır.

Müasir dövrdə xalçaçılıq sənətinin inkişafından danışarkən, ilk növbədə qeyd etmək lazımdır ki, dövlətimiz tərəfindən bu sahədə Azərbaycan mədəniyyətinin və incəsənətinin inkişafı üçün mühüm və əhəmiyyətli addımlar atılır. Məlum olduğu kimi, 2005-ci ildən etibarən ölkə başçısının "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə fərmanı qüvvəyə minib. "Fərmanda, əsasən, Azərbaycanda xalça sənətinin inkişafına və onun xarici ölkələrdə təbliğinə dövlət tərəfindən xüsusi diqqətin yetirilməsi önə çəkilir". [2]

Bu fərmanla xalçaçılıq sənətinin inkişafına xüsusi təkan verildi. Ölkənin ayrı-ayrı bölgələrində son 20 ildə xalçatoxuma sənətindən uzaq qalan qadınlar yenidən dəzgah arxasına keçməklə bu günün xalçalarını toxumağa başladılar. Respublika Prezidentinin fərmanı ilə bağlı olaraq, 2008-ci ilin may ayında Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət və Turizm Nazirliyinin və YUNESKO-nun birgə layihəsi əsasında Dənizkənarı Milli Parkda Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyi üçün inşa edilən yeni binanın təməlatma mərasimi keçirildi. Muzeyin açılışı isə 2014-cü il 26 avqust tarixində reallaşdı.

2010-cu il noyabr ayının 16-da UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin Keniyanın Nayrobi şəhərində baş tutmuş V sessiyasında Azərbaycan xalçaçılıq sənəti UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı"na daxil edildi. "Azərbaycan Prezidenti İlham Əliyevin xalqımızın mədəniyyətinə, mədəni irsimizin təbliğinə göstərdiyi diqqət və qayğısı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsü və əməyi sayəsində Azərbaycan muğam sənəti və Azərbaycan aşıq sənətindən sonra milli xalça sənətimizin bu siyahıda yer tutması ümumi olaraq mədəniyyətimizin beynəlxalq miqyasda tanıdılması istiqamətində növbəti uğurlu addımdır". [1, s.20]

Müasir dövrdə Azərbaycanda xalça sənəti öz inkişafının yeni mərhələsini yaşayır. "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" qanunun qəbul edilməsi, Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün müasir standartlara müvafiq binanın inşa edilməsi bu qədim el sənətinə dövlət qayğısının bariz təcəssümüdür.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 may tarixli 2032 nömrəli Sərəncamı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Xalça və xalça məmulatlarının istehsalı, ixracı, onların ölkə daxilində və xaricdə satışının təşkili, xalça və xalça məmulatlarının istehsalında yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın modernləşdirilməsi və ondan effektiv istifadə, həmçinin bu sahənin inkişafı ilə əlaqəli digər işlərin yerinə yetirilməsi cəmiyyətin əsas məqsədini təşkil edir.

İlkin mərhələdə, "Azərxalça" ASC-nin Füzuli (Horadiz), Ağdam (Quzanlı), Tovuz, Ağstafa, Qazax, Şəmkir, Quba, İsmayıllı, Xaçmaz və Qəbələ rayonlarında filiallarının yaradılması nəzərdə tutulmuşdu. 2016-2017-ci illərdə, qeyd edilən bu rayonlarda binaların tikintisi başa çatdırılmış, filiallar fəaliyyətə başlamış, "Azərxalça"nın xalçaçılıq üzrə tədris-hazırlıq kursları təşkil edilmiş, işçi potensialının gücləndirilməsi məqsədilə müvafiq tədbirlər görülmüşdür.

2014-cü ildən fəaliyyətə başlayan Xalça Muzeyi Azərbaycan xalçasının dünya miqyasında lazımınca təbliğinə və tanınmasına öz töhfəsini bəxş edir. Müasir tələbləri qarşılayan muzeydə toplanılan nümunələr xalqımızın tarixini

özündə birləşdirir. Orijinal üslubda tikilən bükülmüş xalçaya bənzəyən Xalça Muzeyinin sərgi və fondlarında 13300-dən artıq eksponat və əşya qorunub saxlanılır ki, bu da bu sənət növünün müxtəlif dövrlərdəki inkişafını təcəssüm etdirir. Muzeydə Böyük Britaniyanın Viktoriya və Albert Muzeyində saxlanılan məşhur "Şeyx Səfi" xalçasının surəti, eləcə də XVII, XVIII, XIX və XX əsrlərdə toxunmuş məşhur kompozisiyalar da yer alır. Son illər dövlətimiz tərəfindən xarici ölkələrdə saxlanılan Azərbaycan xalqına məxsus sərvətlərin geri qaytarılması məqsədilə görülən müvafiq tədbirlər nəticəsində Xalça Muzeyinin kolleksiyası daha da zənginləşmişdir. Belə ki, Prezident Cənab İlham Əliyevin "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" 07.12.2004-cü il tarixli Qanun və həmin qanunun tətbiqi haqqında 07.02.2005-ci il tarixli Fərmanının 4.1.4 maddəsindəki "Xarici ölkələrin muzeylərində saxlanılan nadir Azərbaycan xalçalarının ölkəyə qaytarılmasına şərait yaradılması" bəndinə əsasən, muzey beynəlxalq aləmdə təbliğat işlərini uğurla davam etdirir. Həyata keçirilən uğurlu işlərin məntiqi nəticəsi olaraq Şərq xalçası və tekstili üzrə Çikaqo (ABŞ) cəmiyyətinin üzvü, mərhum Qrover Şiltsin kolleksiyasından iki ədəd Azərbaycan xalçası – "Əjdahalı" (Qarabağ, XVII əsrin sonu) və "Səlyan Xiləsi" (Şirvan, XIX əsr) muzeyə hədiyyə olunması ilə Azərbaycan xalça sənəti tarixinin mühüm səhifələrindən biri bərpa olundu desək, yanılmarıq.

Azərbaycan Xalça Muzeyinin xovlu xalçalar kolleksiyasında Qarabağ qrupunun qeyri-adi tarixə malik "Baxçadagüllər" xalçası saxlanılır.

Azərbaycan mədəniyyətinin, milli-mənəvi dəyərlərimizin dünyada diqqət çəkdiyi müasir dövrdə Xalça Muzeyinin yaradılması Azərbaycan xalça sənətinin inkişafına nəinki təsir etdi, hətta bir daha onun dünyəvi imicinin yüksəlməsinə öz töhfəsini verdi.

Azərbaycan xalça sənətinin inkişafı yolunda atılmış mühüm addım kimi qeyd etmək olar ki, Xalça Muzeyi dünyada ən böyük xalça kolleksiyasına malikdir. Bununla bağlı Bakıda YUNESKO xətti ilə Şərq xalça sənəti üzrə üç böyük simpozium keçirilmişdir.

2015-ci il iyulun 15-də Kannın Festivallar sarayında "Azərbaycan xalçaları incəsənətdə" sərgisinin açılışı olub. Sərgidə Azərbaycan rəssamları Lətif Kərimov, Vüqar Muradov, Butunay Haqverdiyev və Elçin Vəliyevin əsərləri – milli xalça eskizləri əsasında modern, pop-art xarakterli əsərlər, installyasiyalar təqdim edilib.

Azərbaycan xalçaçılığı sənət sahəsi kimi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Azərbaycan Dövlət Texniki Universitetində, həmçinin incəsənət təmayüllü kollec, lisey və gimnaziyalarda, uşaq rəsm qalereyalarında və digər yerlərdə tədris edilir. Həmçinin "Azərxalça" ASC-nin rayon filiallarının nəzdində xalçaçılıq üzrə tədris-hazırlıq kurslarında peşəkar xalçaçı – toxucu kadrların hazırlanmasına da

böyük əmək sərf olunur.

Azərbaycanda xalçaçılığın inkişafı üçün zəruri normativ hüquqi baza formalaşdırılmış, səmərəli iqtisadi mühit yaradılmış, xalçaçılığın inkişafı və təbliği sahəsində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Bu sahənin sosial-iqtisadi əhəmiyyəti hesaba alınaraq, Azərbaycan Respublikasının ərazisində ənənəvi olaraq əllə toxunmuş və hazırda xalq sənətkarlarının, rəssamların və ustaların hazırladıqları Azərbaycan xalçalarının qorunub saxlanılması, öyrənilməsi, xalça sənətinin təbliği və inkişafı ilə bağlı yaranan münasibətləri tənzimləyən qanunlar, fərmanlar və digər normativ hüquqi aktlar qəbul edilmişdir.

Müasir dövrdə Azərbaycan xalçaçılıq sənətinin inkişafı sahəsində "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair" 2018-2022-ci illər üçün Dövlət Proqramı da qəbul edilmişdir.

Xalçaçılıq sahəsində maddi və mədəni irsin qorunması və davamlı inkişafı Dövlət Proqramının əsas məqsədini təşkil edir.

"Xalçaçılığın xammal təminatının yaradılması, xalçaçılığın infrastruktur təminatının yaxşılaşdırılması, yeni iş yerləri yaradılmasının dəstəklənməsi, xalçaçılıq sahəsində, o cümlədən, yun emalı, yun və ipək ipliklərin hazırlanması, boyaq bitkilərinin emalı və boyaq maddələrinin istehsalı üzrə ixtisaslı kadr hazırlığının həyata keçirilməsi, regionların xalçaçılıq potensialının gücləndirilməsi, "Azerbaijan carpet" ("Azərbaycan xalçası") ölkə brendinin yaradılması, tanıdılması və inkişaf etdirilməsi, xalçaçılığın rəqabət qabiliyyətinin artırılması, xalçaçılığın ixrac potensialının artırılması, sənaye texnikası ilə xalça istehsalı ənənəsinin bərpa edilməsi və inkişafı, ali məktəblərdə dövlət sifarişi ilə tələbə qəbulu planında nəzərdə tutulmuş mövcud say çərçivəsində və ödənişli təhsil hesabına "xalça sənayesi" və "xalça biznesi" ixtisaslarının tədrisi, Azərbaycanın tarixi xalçaçılıq mərkəzlərinə xas olan qədim çeşnilərin bərpa edilməsi, istehsalatda tətbiqi, yeni çeşnilərin hazırlanması və bu çeşnilər əsasında xalçaların toxunması Dövlət Proqramının əsas vəzifələrini təşkil edir" [3].

Xalçaçılıq sahəsində maddi və mədəni irsin qorunması və təbliği, xalçaçılığın rəqabət qabiliyyətinin yüksəldilməsi və daxili bazarın qorunması tədbirlərinin həyata keçirilməsi, xalçaçılığın ixrac potensialının gücləndirilməsi, xalçaçılıqda bütün istiqamətlər üzrə kadr potensialının gücləndirilməsi, xalçaşünaslıq sahəsi üzrə nəzəri və praktiki elmi tədqiqatların əlaqələndirilməsi, genişləndirilməsi və maddi-texniki bazanın gücləndirilməsi isə Dövlət Proqramının əsas istiqamətlərini təşkil edir.

Azərbaycan xalça sənətinin bir elm sahəsi kimi öyrənilməsi və professional rəssamların yaradıcılığında müasir inkişafı Azərbaycanın xalq rəssamı Lətif Kərimovun (1906-1991) adı ilə bağlıdır. Şərq, o cümlədən, Azərbaycan xalçası və dekorativ-tətbiqi sənətinin mahir bilicisi, tanınmış ornamentalist-rəssam, tədqiqatçı- alim L.Kərimov uzun illər Azərbaycan xalçalarını tədqiq etmiş,

Azərbaycan dekorativ sənətini yeni ornamentlərlə zənginləşdirmiş, ənənəvi bəzək elementlərinə əsaslanan yeni dekorativ motivlər yaratmışdır.

Müasir xalçaların toxunma texnikasına gəldikdə onu qeyd etmək lazımdır ki, müasir xalçalar toxunarkən müxtəlif təbii və süni iplik materiallar, həmçinin onların qarışığı istifadə edilir. İplik materialları seçərkən onların kimyəvi və mexaniki cəhətdən xeyli davamlılığı, zahiri görünüşünün gözəl olması, eləcə də istehsalının sadəliyi və dəyərinin ucuz olması nəzərə alınır.

Müasir xalçaları toxumaq üçün yun qırxımından başlayaraq xalçaların yuyulması da daxil olmaqla bütün proseslər müxtəlif aqreqat, dəzgah və aparatların köməyi ilə yerinə yetirilir.

Dəzgah üsulunda aparılan əyiricilikdə yun, ən əvvəlcə didilir. Bundan sonra müxtəlif növlü yunlar, yaxud yun ilə başqa liflər qatışdırılır. Sonra bu qatışıq kütlə yağlanır. Burada xüsusi emulsiya tətbiq olunur. Yağlamaqda məqsəd yun liflərinin bir-birinə dolaşmasının qarşısını almaqdan ibarətdir. Qatışdırılmış yun kütləsi sonra darayıcı maşınlara verilir. Daranmış yun ayrı-ayrı lentlərə bölünür ki, bunlar da hamar lif kütləsinə və ipliyə çevrilir. Aparat əyiriciliyi, başlıca olaraq, qısa yunu emaldan keçirir. Burada iplik nisbətən yoğun və tiftikli olur. Müasir dövrdə xalçalar əllə toxunmaqla bərabər, Cakkard tipli maşınlar vasitəsilə də toxunur.

“Azərxalça” Elmi Yaradıcılıq İstehsalat Birliyinin (AEYİB), “Azər-İlmə” Məhdud Məsuliyyətli Cəmiyyətinin, “Lətif Kərimov adına Azərbaycan xalça sənətinin inkişafı Fondu” İctimai Birliyinin və digər birlik və təşkilatların təşkili müasir Azərbaycan xalçaçılıq sənəti tarixində önəmli yer tutmaqla yanaşı, eyni zamanda Azərbaycanın qədim xalçaçılıq ənənələrinin qorunub saxlanılmasında və müasir xalçaçılığın daha da inkişaf etdirilməsində mühüm xidmətlər göstərir.

Müasir dövrdə Azərbaycanda xalça sənətinin inkişafı ilə əlaqədar xalça muzeylərinin yaradılması, xalça sərgilərinin təşkil edilməsi, beynəlxalq tədbirlərin keçirilməsi ilə bərabər digər bayram və tədbirlərdə də xalçaların nümayişi nəzərdə tutulur.

Müasir dövrdə xalça sənətimiz dünya xalça toxuculuğunun inkişafında artıq öz möhkəm və layiqli yerini tutub. Bu da onu göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətinə öz töhfəsini bəxş etməyə müvəffəq olub.

Dövlətimiz tərəfindən Azərbaycan xalçasına göstərilən diqqət xalçaçılıq sənətinin müasir dövrdə də öz kökü üzərində inkişafda olduğunu bir daha əminliklə sübut edir.

## Ədəbiyyat siyahisi:

1.Azərbaycan xalçaları: kataloq /Heydər Əliyev Fondu; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi; L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi. Bakı. 2010. S. 20.

2.“Azərbaycanda xalça sənətinin inkişafı”. 2010-10-27 tarixində orijinalından arxivləşdirilib.

3.“Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair” 2018-2022-ci illər üçün Dövlət Proqramı.

4.Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin elmi əsərlər toplusu [Mətn]: ön söz /R.Tağıyeva. Bakı, 2008.

5.Dəyişən zamanda dəyişməyən dəyərlər [Mətn]: [2009-cu il L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün uğurlu nailiyyətlər dövrü oldu] /R.Tağıyeva //Xalq qəzeti. 2010. 28 yanvar. Səh.6.

7.L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi [Mətn] /R.Tağıyeva //Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007. S.718-721.

**Алиева Камала**

## Развитие современного Азербайджанского коврового искусства

**Резюме**: После обретения нашей республикой независимости развитие нашего коврового искусства пошло по разным направлениям. Приняты важные меры для развития ковроткачества в Азербайджане.

В статье отмечается, что в современную эпоху государство уделяет особое внимание развитию культуры и искусства, в том числе искусства ковроткачества, и значительную роль в этой работе играют указы главы государства. Отмеченно, что важные шаги, предпринятые в области развития азербайджанского ковроткачества, еще раз ознакомили мир с нашим ковровым искусством.

**Ключевые слова**: ковровое искусство, ковроткачество, народно-прикладное искусство, ковроделие, Музей ковра

**Aliyeva Kamala**

## Development of modern Azerbaijani carpet art

**Summary**: After the independence of our republic, the progress of our carpet art began to take different directions. Important measures have been taken for the development of carpet weaving in Azerbaijan.

In the article, it is noted that in modern times, the state pays special attention to the development of culture and art, including the art of carpet weaving, and the decrees issued by the head of state play a significant role in this work. It is shown that the important steps taken in the development of the Azerbaijani carpet art have once again introduced our carpet art to the world.

**Key words**: carpet art, carpet weaving, folk-applied art, carpet-making, Carpet Museum

**Məqalənin redaksiyaya daxil olma tarixi: 24. 10. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**